

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

2 iyun 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 21 (3584)

# İKİ DÖVLƏTİN, BİR MİLLƏTİN TƏRƏQQİ BAYRAMI

Mayın 26-29-da Bakıda keçirilən “TEKNOFEST Azərbaycan” Aerokosmik və texnologiya festivalı Azərbaycan və Türkiyənin dost, qardaş, müttəfiq ölkələr olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Bu festival iki ölkənin inkişaf, tərəqqi bayramı, gəncliyin bilik, texnologiya yarışı olaraq, hər iki ölkə gənclərini bir-birinə daha da yaxınlaşdırdı, doğmalaşdırdı, aralarında elm, düşüncə münasibətlərini möhkəmləndirdi. “TEKNOFEST Azərbaycan” festivalına olan böyük marağı şərtləndirən digər bir səbəb isə İkinci Qarabağ müharibəsi zamanı döyüş əməliyyatlarında Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən geniş və intensiv istifadə edilən “Bayraktar” PUA-larını işğalçıların torpaqlarımızdan qovulmasında mühüm rol oynaması ilə bağlıdır.

Tədbir çərçivəsində keçirilən müsabiqələrə, şagirdlərin və tələbələrin böyük şövqlə və istəklə qatılması, özlərini sınaması onların elmə, müasir texnologiyalara artan marağını bir daha təsdiq etdi. Pilotsuz uçuş aparatları, robotexnika, peyk modelləşdirilməsi və digər sahələr üzrə gənclərə ideyalarını reallaşdırmaq imkanı verən festival onlarda elm naminə çalışmaq, yeniliklər etmək, sağlam mühitdə rəqabət aparmaq kimi mədəniyyətlərin formalaşmasında mühüm rol oynayacaq. “TEKNOFEST




Azərbaycan” çərçivəsində təşkil olunan sərgilər, hava şouları, konsertlər və əyləncə attraksionları ziyarətçilər tərəfindən maraqla qarşılandı və hamının könlünü oxşadı. Daha qürurverici məqam isə milli şahinlərimizin və qardaş ölkənin pilotlarının möhtəşəm hava şousu idi ki, onlar da çətin manevrlərin öhdəsindən ləyaqətlə gəlməklə izləyiciləri heyrətləndirdilər.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tədbirə qatılması, iki liderin möhtəşəm çıxışları, Türk dünyasına, bütün dünyaya ünvanlı mesajları, habelə qaliblərin təltif olunma mərasimində iştirakları festivala xüsusi önəm gətirdi. Beynəlxalq miqyasda, bizə yaxın bölgədə gedən mürəkkəb proseslər fonunda bu çox əhəmiyyətli, iki Türk dövlətinin yeni qlobal təhdid və çağırışlara qarşı ortaq birliyinin və sarsılmaz ittifaqının unikal örnəyi oldu.

Ölkə başçımızın iki qardaş ölkə arasında bütün sahələrdə - istər hərbi sahə olsun, istərsə də siyasi-diplomatik, iqtisadi-humanitar, yaxud mədəni-texnoloji sahələr – bütün sferalarda ikitərəfli əlaqələrin ən yüksək səviyyədə olduğunu xüsusi qabartması, “Türkiyənin artan gücü bizim gücümüz, bizim gücümüz Türkiyənin gücüdür” tezisinə diqqət çəkməsi əlbəttə ki, əhəmiyyətli məqam kimi yadda qaldı.

“30 il ərzində qardaş Türkiyə daim Azərbaycanın yanında olub. Biz 30 ildə bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə bir yerdədir”-deməklə ölkələrimizin birliyini və həmrəyliyini bir daha nümayiş etdirdi.

Ardınca çıxış edən qardaş Türkiyənin rəhbəri Rəcəb Tayyib Ərdoğan əzəli, əbədi qardaşlığımızın dönməzliyindən bəhs edərək “Azərbaycan və Türkiyə birliyi təzyiqlə, təhdidlə qorxudulanlardan olmayıb və əsla olmayacaq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq. Müharibədə olduğu kimi, sülh dönəmində də Türkiyə qardaş Azərbaycanın yanındadır. Regionda sülh və dayanıqlı sabitliyin təmin olunması üçün Türkiyə fəal şəkildə dəstək göstərəcəkdir,”-deməsi həm dosta, həm də düşmənə mesaj oldu.

# GƏNCLƏRƏ ETİMAD GÖSTƏRİLİR





İyunun 1-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 193 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 53 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.



Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# VƏTƏNƏ DƏ, XALQA DA SƏDAQƏTLƏ...



Ömrünün önəmli bir hissəsini dövlətə, dövlətçiliyə xidmətə həsr edib təqaüdə gedən həmkarımız üçün Daxili İşlər Nazirliyində yolasalma mərasimi keçirilib.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmanın son yaş həddi ilə bağlı Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi, polis general-mayoru Əlaslan Ağayevi qəbul edib.

Nazir polis general-mayoru Əlaslan Ağayevin cinayətkarlığın qarşısının alınmasında və cinayətin açılması işinin səmərəli təşkilində, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmin edilməsindəki xidmətlərini yüksək qiymətləndirib. Onun rəhbərlik etdiyi qurumda nəzərəçarpacaq fəaliyyətini, transmilli cinayətkar qruplara qarşı barışmaz mübarizə aparan Azərbaycanın daxili işlər orqanlarını layiqincə təmsil etdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, onun səriştəsi, peşəkarlığı, idarəçilik bacarığı, xidmətdəki uğurları hər zaman ölkə və DİN rəhbərliyi tərəfindən təqdir olunub, bir çox mükafatlara layiq görülüb. Prezident İlham Əliyevin müvafiq sərəncamlarıyla "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilməsi polis general-mayoru Ə.Ağayevin qüsursuz xidmətinə verilən ali dəyərin göstəricisidir.

Yolasalma tədbirində nazir, general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarında uzun müddət səmərəli fəaliyyət göstərdiyinə görə ona təşəkkürünü bildirib, zəngin təcrübəsini gənclərlə bölüşəcəyinə, onların Vətənə, dövlətçiliyə, anda sədaqət ruhunda tərbiyə olunmalarına, cəmiyyətdə polisin işgüzar nüfuzunun qorunub-saxlanılmasına yaxından kömək edəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula, xoş sözlərə görə minnətdarlığını bildirən Əlaslan Ağayev bundan sonra da polisin şərəfini daim uca tutacağını diqqətə çatdırıb.

# Dünya Kuboku uğrunda mübarizə davam edir

Bakıda atıcılıq üzrə Dünya Kuboku uğrunda yarışa start verilib. Mayın 28-də - Müstəqillik Günündə Bakıda atıcılıq üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib.

Azərbaycan Gənclər və İdman nazirinin müavini Mariana Vasilyeva tədbiri açaraq qonaqları salamlayıb, bu mötəbər yarışın Bakıda keçirilməsindən qürur duyduğunu qeyd edib. O, bu vacib bayramda ölkəmizdə olduqlarına görə iştirakçılara təşəkkürünü bildirib.

Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti Vladimir Lisin çıxışında Dünya Kubokunun Bakıda keçirilməsinin Azərbaycan Respublikası Prezidentinin ölkə idmanına diqqət və qayğısının göstəricisi olduğunu qeyd edib.

Tədbir iştirakçıları müstəqil Azərbaycanın ilk Olimpiya çempionu Zemfira Meftahətdinovanı ad günü münasibətilə təbrik ediblər.

Rəsmi açılış mərasimindən sonra Dünya Kubokunun seçmə mərhələ atışları keçirilib. Yarışın birinci günündə 10 metr məsafəyə tüfəng, pnevmatik tapançadan atəşaçma üzrə kişilər və qadınlar seçmə mərhələdə iştirak ediblər. İyunun 7-dək davam edəcək turnirdə 66 ölkədən 703 idmançı, 331 nümayəndə gücünü sınayacaq. Turnirdə qarışıq komanda, komanda və şəxsi yarışlar keçiriləcək.

Azərbaycanı dünya kubokunda 36 idmançı təmsil edir. Onlardan 17-si oğlan, 19-u qızlardır. Yarışda idmançılar ümumilikdə, 30-u qızıl olmaqla, 188 medal uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, 2015-ci ildə istifadəyə verilmiş Bakı Atıcılıq Mərkəzi 16 hektar sahəni əhatə etməklə, infrastrukturu və təchizatı ilə Avropanın ən yaxşı 4 mərkəzindən biri hesab olunur.

*N.Cavadov*

# ATALARI QƏHRƏMAN, ÖZLƏRİ ƏMANƏTDİR



Aralarında daxili işlər orqanlarının əməkdaşlarının da olduğu şəhidlərin övladları isə bizə əmanət qalıb. Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin qayğısı ilə əhatə olunan şəhid ailələrinin hamımız üçün





Dövlət Turizm Agentliyinin dəstəyi, Müdafiə Nazirliyinin və "Fire Land Production"ın təşkilatçılığı ilə İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarmızın ailələrinə həsr edilən "Mənim atam qəhrəmandır", "Mənim oğlum qəhrəmandır" layihələri çərçivəsində 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə bayram tədbiri keçirilib. Layihə bu dəfə "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda təşkil olunub.

Tədbirin açılışı havaya sülh rəmzi olan göyərçinlərin buraxılması ilə başlayıb. Daha sonra nəhəng Azərbaycan və Türk bayraqları açılaraq şəhid yaxınları və qonaqlarla bərabər dalğalandırılıb. Lalə Azərtaşın aparıcılıq etdiyi tədbirin qonaqları arasında Vətən müharibəsi zamanı reportajlarını xüsusi həssaslıqla təqdim edərək xalqımızın rəğbətini qazanmış Fulya Öztürk də olub.

Tədbirdə Müdafiə Nazirliyinin Qadınlar və hərbi qulluqçuların ailələri işi üzrə Zümrüd Səmədzadə, Mədəni kütləvi şöbənin rəis müavini, polkovnik-leytenant Namiq Cavadov, Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəis



müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, Yasamal Rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, İkiqat Paralimpiya Oyunları çempionu İlham Zəkiyev, 26 qat dünya çempionu, 7 qat Avropa çempionu Eduard Məmmədov və xalq rəssamı Əşrəf Heybətov çıxış edib, fikirlərini bölüşüblər.

Qeyd edilib ki, Vətən müharibəsində ölümün gözünə dik baxıb, şəhidlik zirvəsinə ucalan oğullarımız işğaldan azad olunmuş torpaqlarımızı qanları ilə müqəddəsləşdiriblər.

əziz, doğma olduğu və xalqımızın hər zaman bu ailələrə dərin ehtiram göstərəcəyi vurğulanıb.

Daha sonra tədbir populyar və sevilən incəsənət nümayəndələrinin, yaradıcı kollektivlərin konsert proqramı ilə davam edib, "Zəfər marşı"yla başa çatıb.

*R.Mehtiyev*

"Biri vardı, biri yoxdu"yla başlayan, "Göydən üç alma düşdü"ylə bitən nağılları eşidə-eşidə böyüyürlər. Bəzən özlərini nağıl qəhrəmanlarına bənzədir, bəzən də özləri yürlər.

Gördüyünüz bu şəkildə uşaqlarını polislə qorxudan valideynlərə bir mesaj ünvanlanıb. Şəkil deyir ki, əlində kitab olan bu balaca ona nağıl oxuması



# Şəkillər də danışırmış

## *Kaş, biri varkən, biri yox olmayaydı...*

nağıl qəhrəmanları uydururlar. Nağılların arxasında hansı sehrin durduğunu anlamağa çalışır, nağıllı dünyanı gerçək bilir uşaqlar...

Ancaq elələri var ki, dünyaya göz açdığı evdə ancaq "qorxulu nağılların" təsiri altında böyü-

üçün elə hər günü nağıl kimi maraqlı olan polis əmisinə üz tutur...

"Bu foto anidən çəkilib. Zorakılığa məruz qalmış bir uşağın qəlbinə yol tapmağın ən gözəl nümunəsi ona nağıl oxumaqdır. Bu körpə polis əməkdaşına kitab uzadıb "Polis əmi, mənə nağıl oxuyarsan?",- deyir. Nağıl ona ağrılarını unutdurur, ümidlərini artırır, güvən verir. Uşaqlara düzgün yanaşdıqca birgə fəaliyyətimiz də uğurlu olur. Polis əməkdaşlarının hər birindən səmimiyyət, xoş yanaşma görürük və bundan qürur duyuruq"...

"Azərbaycan Uşaqları" Birliyinin sədri Kəmalə Ağazadə Abşeron RPİ-nin müstəntiqi, polis kapitanı Zaur Əkbərovun şəkli ilə bağlı öz təəssüratlarını belə bölüşür...

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# "ÖYRƏNƏK, UŞAQLARI DA ÖYRƏDƏK!"



Yol hərəkəti qaydaları haqqında azyaşlıların məlumatlandırılması, küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin öyrədilməsi, eləcə də onların sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır.

Şirvan regional qrupumuzdan verilən məlumata görə, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na uyğun vəzifələri yerinə yetirmək məqsədilə BDYPİ-nin və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə Şirvan şəhər 20 saylı tam orta məktəbdə "Öyrənək, uşaqları da öyrədək!" mövzusunda təlim keçirilib. Təlimdə polis əməkdaşları, Şirvan şəhəri və ətraf rayonların uşaq-gənclər inkişaf mərkəzlərinin direktorları, şöbə müdirləri, dərnək rəhbərləri iştirak ediblər. İştirakçılara müasir üsullardan istifadə edilərək "İşıqfor", "Yolu keçmə qaydaları", "Yol nişanları", "İctimai nəqliyyatda davranış qaydaları" və "Yol hərəkəti iştirakçıları" mövzusunda məşğələlər keçirilib, yol hərəkəti qaydalarını azyaşlılara öyrətməyin yolları və görüləcək işlər müzakirə olunub.

İki gün davam edən təlimdə iştirakçılara elektron variantda təlim materialları və sertifikatlar verilib.

*Nizam Həmidov, polis baş leytenantı*

# ŞƏHİD QARDAŞLARIN POLİS BACILARI



İkinci Qarabağ müharibəsində təkcə itirilmiş torpaqlarımızı deyil, milli qürurumuzu da geri qaytaran şəhidlərimiz bizə bir bütöv Vətən, bir də ailə üzvlərini əmanət edib göylərə, ilahi qata yüksəliblər. Bəli, məhz onların sayəsində Vətənin bağrına çəkilən çalın-çarpaz dağ, ana yurdun köksündə xan Araz kimi dərin şıram açmadı. Ancaq oğul, qardaş itkisinin ağrı-acısı, göynərtisi şəhid analarının, şəhid bacılarının və şəhid ömür-gün yoldaşlarının ürəyində için-için közərir hələ də.

Bu yanğıya məlhəm olsun deyə DİN rəhbərliyi hər zaman şəhid ailələrinə xüsusi qayğıyla yanaşır, şəhid, qazi ailələrinin üzvlərini sıralarımıza qəbul edib dövlətin, xalqın keşiyini çəkmək vəzifəsi həvalə etməklə, qardaşlarının missiyasını davam etdirmək imkanı, fürsəti yaradır.

Ötən həftə keçirilən "Texnofest" festivalının təhlükəsizliyinin təmin edilməsinə cəlb edilən qadın polis əməkdaşlarının sırasında Daxili Qoşunların şəhid hərbi qulluqçularının bacıları da xidmət edirdi ki, bu fakt bizə, qardaşların dövləti qoruma vəzifəsini onların layiqincə davam etdirdiyini göstərir.

Sabunçu RPİ Təhlükəsiz Şəhər Xidmətinin operatoru, polis kiçik serjantı Nisə Abdullayeva polis olan bütün şəhid doğmalarının duyğularını ifadə etdi bizə sanki: "Bizim yolumuz qardaşlarımızın yoludur. Geyindiyimiz uniforma onların bizə əmanətidir, yaşatdıqları qürurdur. Qardaşlarımızın mərdliyi, Vətənə xidməti bizim üçün bir nümunədir".

Onun qardaşı, Daxili Qoşunların baş çavuşu Tural Abdullayev Zaqatalada xüsusi təyinatlı "Qartal" dəstəsində xidmət edirmiş, Kəlbəcər uğrunda döyüşlərdə şəhid olub. Şəhadətindən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Deyir, polisdə xidmətə başlayanda özümə söz verdim ki, qardaşımın yolu yolum olacaq. "Ən böyük arzum qardaşım kimi şəhidlərimizin can qoyduğu, qanları ilə pakladığı Qarabağda işinin əhli olan, peşəkar zabit kimi xidmət etməkdir. Bu, mənim üçün şərəf və qürur olar. Qardaşım Vətən oldu, mən də polis əməkdaşı olaraq, Vətən uğrunda can verərəm!"

Binəqədi RPİ-nin polis nəfəri, polis kiçik serjantı Arzu Əliyeva da qardaşı kimi Vətənə xidmət etməyi özünə məslək seçdiyinə, daha doğrusu, DİN rəhbərliyinin ona bu imkanı yaratdığına görə bundan qürur duyduğunu dilə gətirir. O, Daxili Qoşunların xüsusi təyinatlı hərbi qulluqçusu, şəhid, baş çavuş Seymur Həsənlinin bacısıdır.

Həmkarımızın qardaşının döyüş yolu haqqında ötən nömrəmizdə ətraflı məlumat versək də, yenə xatırlatmaq istərdik ki, son döyüşünə yollanarkən anası nigaran qalmasın deyə Bərdədə təlimdə olduğunu deyən hərbçimiz müharibədən öncə təyin etdiyi toyu günü, noyabrın 8-də Şuşa yaxınlığında şəhid olub. "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qardaş itkisi Arzu Əliyevanın da içində qor bağlayıb, ancaq polis əməkdaşı olaraq dövlətinə xidmət edib, qardaşının xatirəsini bununla yaşatmağın ona təsəlli verdiyini, xidmətini də yüksək amallar uğrunda davam etdirməyi özünə həyat kredosu seçdiyini deyir.

Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Daxili Qoşunların xüsusi təyinatlısı, baş çavuş Vüqar Cəfərovun bacısı Şəlalə Cəfərova isə hazırda Nizami RPİ-nin polis nəfəri, operatoru, polis sıravisidir. O, ötən il daxili işlər nazirinin göstərişi ilə xidmətə qəbul olunmaqla, şərəfli polis adını qazanıb.

"Bunu özüm üçün bir iftixar, qürur bilirəm və xidmətə qəbul olunmağımı həm Ali Baş Komandanımızın, həm də DİN rəhbərliyinin şəhid ailələrinə diqqət və qayğısı hesab edirəm",-deyən xanım həmkarımız şəhid qardaşının əziz xatirəsini polis kimi yaşatmağın ona mənəvi güc, qüvvət verdiyini bildirir. Çünki, bu da Vətəni qorumaq, ona sahib çıxmaq deməkdir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*



# FUTZAL TURNİRİNƏ YEKUN VURULUB




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü, o cümlədən "Müstəqillik Günü" ilə əlaqədar Bakı qarnizonunun ərazi polis orqanları arasında keçirilən futzal üzrə çempionata yekun vurulub.

Mayın 10-dan start götürən turnirdə Bakı Şəhər Baş Polis İdarəsi, Metropolitendə Polis Şöbəsi, eləcə də paytaxtın yol polisi daxil olmaqla ümumilikdə 15 komanda iştirak edib.

DİN İdman Cəmiyyətinin zalında baş tutan Sabunçu və Qaradağ Rayon Polis idarələri komandalarının final oyunu gərgin anlarla yadda qalıb. Sarı kartların çoxluğu ilə müşahidə olunan finalın ilk 20 dəqiqəsini Qaradağ RPİ-nin komandası məğlub başa vurub. İkinci hissədə daha inamlı oyun nümayiş etdirən Qaradağ futzalçıları rəqib komandanı üç dəfə oyuna mərkəzdən başlamağa məcbur edib. Son saniyələrə qədər əzmkar mübarizə aparmasına baxmayaraq göy formalı (Sabunçu RPİ) top qovanlar 2:3 hesablı məğlubiyyətlə barışmalı olublar.

Yarışda Qaradağ RPİ-nin komandası I, Sabunçu RPİ-nin komandası II, Nərimanov RPİ-nin komandası isə III yeri tutub.

Qaliblər kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Peşəkar yanaşma vətəndaş məmnunluğuna səbəb olur




Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının, xüsusən söz və məlumat azadlığının, eləcə də dövlət qurumlarının fəaliyyətində şəffaflığın və aşkarlığın təmini bu sahədə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir.

İctimaiyyətlə əlaqələrin genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin daha da yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə rəsmi səhifələrinin fəaliyyəti vətəndaşlar tərəfindən təqdir olunur. Qeyd edək ki, bu səhifələrin ümumi izləyici sayı 400 mindən artıqdır.

Səhifələrdə daxili işlər orqanlarında baş verən yeniliklər, hüquqi və struktur islahatları, keçirilən maarifləndirici, profilaktiki tədbirlər, kriminogen durum, açılan cinayət hadisələri barədə xəbərlərin operativ və obyektiv yayımının təşkili diqqətdə saxlanılır.

Eyni zamanda, gün ərzində vətəndaşlar tərəfindən səhifələrin mesaj və rəy bölmələrinə yazılan sualların və müraciətlərin hər biri ayrı-ayrılıqda cavablandırılır, müvafiq izahlar verilir. Polisin fəaliyyəti ilə bağlı araşdırılmasına ehtiyac duyulan müraciətlər qeydiyyata alınır, əksəriyyəti yerindəcə həllini tapır. Polisin səlahiyyətinə aid olmayan məsələlər isə aidiyyəti üzrə istiqamətləndirilir.

Nəzərə çatdırırıq ki, cari ilin 5 ayı ərzində səhifələrin mesaj bölməsinə ümumilikdə 11 min 560 müxtəlif məzmunlu müraciət daxil olub. Onlardan 9006-sı cavablandırılıb, 1983-ü isə qeydiyyata alınmaqla araşdırılması üçün aidiyyəti üzrə polis orqanlarına yönləndirilib. Qeyd olunan dövrdə vətəndaşlar tərəfindən 600-ə yaxın təşəkkür məktubu daxil olub.

*Sosial şəbəkələrdə*
*fəaliyyətin təmini bölməsi*

# BİZƏ YAZIRLAR...



**Vətəndaş Şirasdan Vəliyev** narkotiklərin satışı və istifadəsinə qarşı Azərbaycan Polisinin apardığı qətiyyətli mübarizə tədbirlərini yüksək qiymətləndirir.

**Paytaxt sakini Kəmalə Məmmədova** itirdiyi pul kisəsinin tez bir zamanda tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Binəqədi RPİ-nin 5-ci PB-nin əməkdaşlarına təşəkkürünü bildirir.

**Sumqayıt şəhər sakini Fəridə Kərimova** isə elekton müraciətinə operativ şəkildə baxılaraq probleminin tez bir zamanda həllini tapmasında göstərdikləri köməkliyə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlıq edir.

# "POLİS UŞAQLARIN DOSTUDUR!"

## Həmkarlarımız Uşaqların Beynəlxalq Müdafiəsi Günü şagirdlərlə görüşüb



Bakı Şəhər Baş Polis və Nəsimi Rayon Polis idarələrinin birgə təşkilatçılığıyla 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Bakı İstanbul Liseyində "Polis uşaqların dostudur!" mövzusunda ibtidai sinif şagirdləri ilə görüş keçirilib.

Tədbirdə Baş İdarənin YYÇPİTB-nin rəisi, polis polkovniki İbrahim İsmayılov, bölmənin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, Nəsimi RPİ-nin aidiyyəti bölməsinin əməkdaşları, eləcə də məktəbin pedaqoji heyəti iştirak ediblər.





İbtidai sinif şagirdlərini bayram münasibətilə təbrik edən həmkarlarımız polisin balacaların ən yaxın dostu olduğunu, onların sülh və əmin-amanlıq içində, eyni zamanda xoş, firavan həyat yaşamaları üçün daima təhlükəsizliyin keşiyində dayandıqlarını bildiriblər. Görüşdə, həmçinin yetkinlik yaşına çatmayanlarla, çətin tərbiyə olunan uşaqlarla profilaktik işin aparılması barədə danışan Nəsimi RPİ-nin əməkdaşları yol-hərəkəti təhlükəsizliyi barədə də məlumat veriblər.

Həmkarlarımız gəncləri maraqlandıran sualları cavablandırıb, tövsiyələrini çatdırıblar.

Sonra uşaqların bayram sevinclərinə şərik olan paqondaşlarımız onları hədiyyələrlə sevindiriblər.

Uşaqlar bu gözəl gündə dəyərli vaxtlarını ayırıb onlarla görüşən əməkdaşlarımıza, eləcə də göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

*T.Əlizadə*




Onlara görə həyatı, yaşamağı daha çox sevirik, daha çox əziyyətə qatlaşırıq. Dünyaya onların gözü ilə baxa bilməsək də çalışırıq ki, xəyallarında qurduqları dünyalarındakı yer üzünə həmişə günəş gülümsəsin. Onları qorumaq üçün kədərin, qəmin yelkən açdığı dənizlərin dəli dalğalarına sinəmizi gərib ömrümüzdən belə keçirik...

Gəlin, dünyanı bircə günlük də olsa uşaqlara verək. İnanın, o bir günün sevinci bir ömrə bədəl olar. Sizcə müharibələr, pandemiyalar, can alan təbiət hadisələri Yaradanın bizi yaratdığına peşimanlığının ifadəsi deyilmi? Sizə səslənirəm, insanlar, bir körpə gülüşü ilə dünyanı xilas etməyin vaxtı çoxdan çatıb...

*H.Təmirov*







**Sabunçu Rayon Polis İdarəsi** əməkdaşlarının son bir ayda keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan ümumilikdə 98 nəfər saxlanılıb. Aşkar edilən bütün faktlarla əlaqədar İdarənin İstintaq Şöbəsində cinayət işləri başlanılıb. Saxlanılan şəxslərdən 64-ü barəsində məhkəmə tərəfindən həbs, 34-ü haqqında isə polisin nəzarəti altına vermə və digər növ qətimkan tədbirləri seçilib. Onlardan ümumilikdə 27 kiloqram narkotik vasitə və psixotrop maddə aşkar edilərək götürülüb.

Qeyd edilən dövr ərzində keçirilən əməliyyatlar zamanı Bakıxanov, Maştağa, Balaxanı, Zabrat və digər ərazilərdə yerləşən evlərdən, mağazalardan, ödəmə terminallarından silsilə oğurluqlar edən 19 nəfər də saxlanılıb. Bu şəxslərin həmin ərazilərdə yerləşən 50-yə yaxın evdən, eləcə də obyektdən pul, qızıl-zinət və məişət əşyaları oğurladıqları müəyyən edilib. Qeyd edilən faktlarla bağlı Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.

◆◆◆

**Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə** Bakı şəhər sakini Y.Əhmədovun bank hesabından 8500 manatın oğurlanması barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən paytaxt sakini, əvvəllər oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş X.İsayev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Sumqayıt ŞPİ-nin 2-ci Polis Bölməsi** əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini, əvvəllər məhkum olunmuş Ş.Hətəmovdan "F-1" qumbarası aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılan Bakı şəhər sakini R.Acalovdan 5 qrama yaxın marixuana, elektron tərəzi, idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı isə 5 kiloqramdan artıq marixuana və 1 kiloqram 27 qram heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Saatlı rayon sakini P.Əzizovun idarə etdiyi "Chevrolet" markalı avtomobil saxlanılmışdır. Sürücü və sərnişinləri R.Əkbərov, S.Əzizov və Y.Qurbanlı Rayon Polis Şöbəsinə gətirilmişlər. Avtomobilə baxış zamanı oradan sürücüyə məxsus 1 kiloqram 535 qram heroin aşkar edilərək götürülmüşdür.

# SƏHNƏDƏN BAŞLANAN MÜBARİZƏ

## *Maarifləndirmə tədbirlərindəki bu yenilik mübarizənin kəsərini artırır*




Sağlam gələcək və gənclik naminə orta məktəblərdə zərərli vərdişlərə, narkomaniyaya qarşı mübarizədə keçirilən maarifləndirmə tədbirlərinin təşkilində Biləsuvar Rayon Polis Şöbəsi daha bir yeniliyə imza atıb. Belə ki, Rayon İcra Hakimiyyətinin, Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı və təşəbbüsü ilə Mədəniyyət Mərkəzində təhsil, mədəniyyət müəssisələrinin kollektivləri üçün "Narkomaniyaya yox deyək!" mövzusunda tamaşa nümayiş etdirilib.

Səhnələşdirilən tamaşada narkomaniyanın ailədə, cəmiyyətdə yaratdığı neqativ hallar, səbəb olduğu dəhşətli nəticələr canlandırılıb.

Həvəskar aktyorların peşəkarlıqla ifa etdiyi obrazlar tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

**Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov və RPŞ-nin rəisi, polis polkovniki Nəsib Məmmədov** ümumbəşəri bəlayla mübarizədə, həmçinin yeniyetmə və gənclərin sağlam, vətənpərvər ruhda tərbiyə olunmasında hər kəsin fəal olmasının vacibliyini qeyd ediblər.




# İDMANÇI POLİSLƏRİN UĞURU

Bu günlərdə Daşkənd şəhərində universal döyüş üzrə keçirilən yarışda əməkdar idman ustası, 5 qat dünya, 6 qat Avropa çempionu, ***Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin YPXA-nın Növbətçi Hissəsinin operatoru, polis serjantı Nicat Əliyev*** dünya kəmərini qazanıb. Həmkarımız bu yarışa qədər dünya oyunlarının, bir neçə kubokun qalibi və Asiya kəmərinin sahibi olub.

Onun rəqibi 2 qat dünya çempionu, amerikalı Cesse Smiz olub.

Qələbə sevincini "Polis"lə bölüşən idmançımız bildirib ki, Müstəqillik günündə qalib gəlməsi onun üçün olduqca vacib idi və bu qələbə karyerasında xüsusi yer tutur.

İsrailin Nahariya şəhərində keçirilən daha bir yarış yaddaqalan olub. Jiu-jitsu üzrə 33 ölkədən 300-dən çox idmançının qatıldığı Avropa çempionatında əməkdar idman ustası, ***DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis kapitani Elşən İbişov*** fərqlənib. O, ustalar arasında 85 kiloqram çəkidə Rumıniya, İtaliya, Fransa idmançılarına qalib gəlsə də, finalda hakimlərin qərəzli münasibətilə qarşılaşaraq, rumıniyalı idmançıya "məğlub" olub və gümüş medal qazanıb.









Yeri gəlmişkən, mayın 28-29-u tarixlərində pauerliftinq üzrə respublika çempionatı da keçirilib. Sözügedən çempionatda 90 kiloqram çəki dərəcəsində çıxış edən ***DİN BMİ-nin Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin əməkdaşı, polis serjantı Roman Əhmədov*** əvvəlki yarışlardan qalan travmalara görə gümüş medal qazanıb.

Qeyd edək ki, R.Əhmədov 2018 və 2019-cu illərdə NAP üzrə Soçidə -Avropa, 2019-cu ildə isə WPC üzrə Finlandiyada dünya çempionu tituluna sahib olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Tibb İdarəsinin müalicə-profilaktika müəssisələrində vakant olan tibb bacısı (sıravi və kiçik rəis heyəti) vəzifələrinə xidmətə qəbulla əlaqədar

## müsabiqə elan edir

Müsabiqədə Azərbaycan Respublikasının dövlət tibb orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, boyu 160 santimetrdən aşağı, yaşı 25-dən yuxarı olmayan, ixtisası üzrə azı 3 il praktiki təcrübəyə malik, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri olan qadın cinsli vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci ilin may ayının 16-dan iyun ayının 16-dək **www.mia.gov.az** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər şəxsiyyət vəsiqəsi, təhsil haqqında diplom və əmək kitabçasını təqdim etməlidirlər.

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59**
**(012) 590-20-94**

# STATİSTİKA

## Kriminal icmal

- Mayın 25-dən iyunun 1-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 356 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 49 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 410, o cümlədən borclu şəxs qismində axtarışda olan 282 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 11 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 179, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.


Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.


REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:15
Qiyməti 40 qəpik